Azərbaycan Respublikası Təhsil Nazirliyi

UNEC

Beynəlxalq İqtisadiyyat kafedrası

# BEYNƏLXALQ İNVESTİSİYALAR

**fənninin**

# PROQRAMI

| | |
|---|---|
| 060401 | "Dünya iqtisadiyyatı" |
| 060401 | "Beynəlxalq maliyyə-kredit və valyuta münasibətləri" |
| 060401 | "Beynəlxalq İqtisadiyyat" |
| 060401 | "Gömrük işi" |
| 060401 | "Beynəlxalq ticarət" |
| 060401 | "Xarici iqtisadi fəaliyyət" |
| 060405 | "Sənayenin təşkili və idarə edilməsi" |
| 060405 | "İnvestisiyanın iqtisadi qiymətləndirilməsi" |

İxtisasları üzrə təhsil alan bakalavrlar üçün

**BAKI - 2017**

**TƏRTİB EDƏNLƏR:** **i.e.d., prof. İ.A.Kərimli**

**i.e.d., prof. E.M.Hacızadə**

**i.f.d., dos. M.İ.Bərxudarov**

**ELMİ REDAKTOR:** **i.e.d., prof. Ə.C.Muradov**

**RESENZENTLƏR:** Bakı Dövlət Universitetinin Dünya İqtisadiyyatı kafedrasının müdiri,
**i.e.d., prof. H.B.Rüstəmbəyov**

AMEA-nın İqtisadiyyat İnstitutunun İqtisadi Nəzəriyyə və İqtisadi fikir tarixi şöbəsinin müdiri,
**i.e.d., prof. Y.Z.Yüzbaşıyeva**

Bakı Biznes Tədris Mərkəzinin direktoru.
**i.f.d., dos. A.H.Fərruxov**

Azərbaycan Respublikası
Təhsil Nazirliyinin Elmi-metodik
Şurasının "İqtisadiyyat və idarəetmə"
bölməsinin _____ tarixli iclasının qərarı
ilə təsdiq edilmişdir (*protokol №* __)

## Mündəricat


| | | |
|---|---|---|
| 1 | Əsas ixtisarların siyahısı | 05 |
| 2 | Elmi redaktordan ön söz | 07 |
| 3 | Giriş | 10 |
| 4 | İzahat vərəqi | 11 |
| 5 | I Fəsil Beynəlxalq (*beynəlmilli*) iqtisadiyyatda investisiya fəaliyyətinin ümumi əsasları və başlıca nəzəriyyələri | 27 |
| 6 | Mövzu 1. Beynəlxalq investisiyalar kursunun funksiyaları, öyrənmə obyekti, predmeti və tədqiqat metodu | 27 |
| 7 | Mövzu 2. Kapitalın beynəlxalq hərəkətinin ilkin şərtləri və investisiya siyasəti konsepsiyaları | 29 |
| 8 | Mövzu 3. Kapital ixracının (*xarici investisiyaların*) forma və növ müxtəlifliyi, onların tənzimləmə xüsusiyyətləri | 32 |
| 9 | Mövzu 4. Beynəlxalq istehsalın formalaşmasının əsasları və istiqamətləri | 34 |
| 10 | II Fəsil. Beynəlxalq investisiyaların hərəkətinə şərait yaradan mühit və işgüzar fəaliyyət | 37 |
| 11 | Mövzu 5. Beynəlxalq investisiyaların cəlb olunmasının meyarları. | 37 |
| 12 | Mövzu 6. Beynəlxalq investisiya rejimləri: İnvestisiyaların cəlb olunmasında qərarların qəbulu qaydaları | 39 |
| 13 | Mövzu 7. İnvestisiya siyasətində milli və beynəlmilli səviyyələrdə formalaşan başlıca istiqamətlər | 41 |
| 14 | Mövzu 8. Beynəlxalq iqtisadiyyatda milli investisiya siyasəti və dünya təcrübəsi | 44 |
| 15 | Mövzu 9. Beynəlxalq investisiyaların geoiqtisadi əməkdaşlıq müstəvisində tənzimlənməsi | 46 |

| | | |
|---|---|---|
| 16 | Mövzu 10. Dünya Bankı beynəlxalq investisiyaların tənzimlənməsi sistemində | 49 |
| 17 | III Fəsil. Beynəlxalq investisiya və beynəlxalq rəqabət qabiliyyətliliyin artırılması imkanları | 52 |
| 18 | Mövzu 11. Birbaşa xarici investisiya qoyuluşları və beynəlxalq rəqabət qabiliyyətliliyin artırılması | 52 |
| 19 | Mövzu 12. Beynəlxalq investisiya riskləri və onların idarə olunması | 54 |
| 20 | Mövzu 13. İnvestisiyaların beynəlxalq hərəkətinin təşkilati-hüquqi əsasları | 56 |
| 21 | Mövzu 14. Dünya Ticarət Təşkilatı çərçivəsində beynəlxalq investisiyaların tənzimlənəsi | 58 |
| 22 | Mövzu 15. Azərbaycanda beynəlxalq investisiyalar: mövcud vəziyyət və perspektivlər | 61 |
| 23 | Ümumi ədəbiyyat siyahısı | 64 |

## Əsas ixtisarların siyahısı

| | |
|---|---|
| **ABŞ** | Amerika Birləşmiş Ştatları (*United States of America, USA*). |
| **Aİ** | Avropa İttifaqı (*European Union, EU*). |
| **ASEAN** | Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası (*Association of South East Asian Nations - ASEAN*). |
| **BXİ** | Birbaşa Xarici İnvestisiyalar (*Direct foreign investment - DFİ*). |
| **BİS** | Beynəlxalq Investisiya Sazişləri. (*International Investment Agreements - IIA*) |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı (*United Nations - UN*). |
| **DB** | Dünya Bankı (*World Bank - WB*). |
| **DTT** | Dünya Ticarət Təşkilatı (*World Trade Organization - WTO*). |
| **ETT** | Elmi-Texniki Tərəqqi (*Scientific and technical progress*). |
| **GATT** | Ticarət və Tariflər üzrə Baş Saziş Təşkilatı (*General Agreement on Tariffs and Trade - GATT*). |
| **GATS** | Xidmətlər sahəsində Ticarət üzrə Baş Saziş (*General Agreement on Trade in Services - GATS*). |
| **BİA** | Beynəlxalq İnkişaf Assosiyasiyası (*Interactive DisAssembler - İDA*). |
| **BMK** | Beynəlxalq Maliyyə Korporasiyası. (*International Finance Corporation - IFC*). |

| | |
|---|---|
| **ICSID** | İnvestisiya mübahisələrinin həlli üzrə Beynəlxalq Mərkəz (*International Centre for Settlement of Investment Disputes - ICSID*) |
| **MIGA** | Çoxtərəfli İnvestisiya Təminatı Agentliyi (*Multilateral Investment Guarantee Agency - MIGA*). |
| **NAFTA** | Şimali Amerika Azad Ticarət Sazişi (*North AmericanFree Trade Agreement - NAFTA*). |
| **OECD** | İqtisadi əməkdaşlıq və inkişaf təşkilatı (*Organisation for Economic Co-operation and Development -OECD*). |
| **TAP** | Trans-Adriatik Boru Kəməri (*Trans Adriatic Pipeline - TAP*) |
| **TANAP** | Trans Anadolu Qaz Boru Kəməri (*Trans-Anatolian Natural Gas Pipeline - TANAP*). |
| **TMK** | Trasmilli korporasiya (*Transnational corporation - TNC*). |
| **TRİMs** | Ticarətlə əlaqədar investisiya tədbirləri üzrə saziş (*Agreement on Trade-Related Investment Measures - TRİMs.*) |
| **UNCITRAL** | BMT-nin Beynəlxalq Ticarət Hüquqları üzrə Komissiyası (*United Nations Commission on International Trade Law - UNCITRAL*) |
| **UNCTAD** | BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı. (*United Nations Conference on Trade and Development - UNCTAD)* |

## Elmi redaktordan ön söz

Dünya ölkələri beynəlxalq iqtisadi əlaqələr sistemində tutduğu özünəməxsus mövqeyə, beynəlxalq ixtisaslaşma və kooperasiyalaşma səviyyəsinə görə bir-birindən fərqlənirlər. Bu prosses beynəlxalq əmək bölgüsünün təsiri altında obyektin hal kimi formalaşır və dərinləşir. Təbii ehtiyatlarına, iqtisadi potensialına, torpaq-iqlim şəraitinə və coğrafi mövqeyinə uyğun özünün istehsal-təsərrüfat əlaqələrinin düzgün və səmərəli təşkil edən ölkələr milli və beynəmilli iqtisadiyyatda nisbi üstünlüyə malik olur, beynəlxalq iqtisadi əlaqələrdən daha çox fayda götürür. Bu prossesin reallığı barədə çox saylı nəzəriyyələr, konseptual fikirlər və konkret modellər yaradılmış və onlar müasir dövrdə də öz aktuallığını qoruyub saxlamaqdadır.

İstər bu və ya digər hallar və istərsə də müasir reallıq baxımından beynəlxalq iqtisadi əlaqələrdə və onun strukturunda əhəmiyyətli yer tutan, son illər daha geniş dairədə formalaşaraq böyük miqyas alan beynəlxalq investisiya əlaqələri diqqəti daha da cəlb edir. Ümumilikdə investisiyaların, ayrılıqda isə daxili və xarici investisiyaların, bununlada milli və beynəlxalq investisiyaların mahiyyətinin müəyyənləşdirilməsi mühim metodoloji məsələ hesab olunur. Bu mənada iqtisad yönümlü ali məktəblərdə tədris olunan Beynəlxalq investisiyalar kursu tələbələr tərəfindən böyük maraqla dinləniləcəkdir. Kapitalla investisiyaların, eynilə də beynəlxalq kapitalla beynəlxalq investisiyaların oxşar və fərqli cəhətlərinin birmənalı izahının olmaması hər iki kateqoriya və anlayış haqqında, onların hər ikisinin fəaliyyəti ilə bağlı elmi və təcrübi məsələlərin həlli müəyyən dərəcədə mürəkkəb olaraq qalır.

Dünyanın bir çox iqtisadi məktəbinin nümayəndələri kapitalların və investisiyaların beynəlxalq hərəkətinin ümumi təsvirində, məzmun, forma və növ müxtəlifliyinin izahında çox hallarda eyni fikrə gələ bilmirlər. Beynəlxalq investisiyaları beynəlxalq kapitalın bir hissəsi olması, bu kapitalın investisiyalar formasında beynəlxalq hərəkətini qəbul etmək məqsədəuyğun sayıla bilər. Bu mənada beynəlxalq investisiyaları beynəlxalq bazar subyektləri olan investorların öz gəlirlərini istehlaka deyil, gələcəkdə daha çox gəlir əldə etmək məqsədilə sərəncam verə biləcəyi yığıma yönəltmələri, yəni kapitalın təkrar istehsalı formasında əsas kapitalın daha da artırılmasına yönəltdiyi ümumi kapitalın bir hissəsi kimi təsəvvür olunması lazım gəlir.

İnvestisiyaların beynəlxalq hərəkəti çox hallarda maliyyə resurslarının beynəlxalq hərəkət kimi adlandırılır. İnvestisiyalara yönəldilən maliyyə resurslarının mövcudluğu bütünlükdə istehsalın maddi-texniki və texnoloji əsaslarının, ayrılıqda isə investisiya malları istehsalının genişləndirilməsinin mühim ilkin şərtidir. Maliyyə resursları formasında investisiyaların beynəlxalq hərəkətinin mərkəzində resursların bir ölkənin ərazisindən digər ölkənin ərazisinə keçirilməsidir. Yəni həmin resurslar bir ölkənin milli dövriyyəsindən çıxarılaraq başqa ölkələrdə müxtəlif formalarda istehsal-təsərrüfat dövriyyəsinə daxil olmasıdır.

Müasir dövrdə Azərbaycan iqtisadiyyatına beynəlxalq investisiyaların cəlb olunması prossesi daha da sürətlənməkdədir. Bununla yanaşı ölkənin beynəlxalq ticarət-iqtisadi əlaqələrinin daha da inkişafına, milli iqtisadiyyatın rəqabətqabiliyyətinin artmasına cəlb olunan beynəlxalq investisiyaların təsiri daha da güclənməkdədir.

Azərbaycanın Milli iqtisadiyyatının indiki və perspektiv dövrü üçün beynəlxalq investisiya qoyuluşları xüsusi əhəmiyyət daşıyır. Bu mənada ölkənin ali məktəblərinin bakalavr pilləsində beynəlxalq iqtisadiyyat yönümlü ixtisaslarda beynəlxalq investisiyalar fənninin tədrisi diqqəti cəlb edir. Tədris üçün nəzərdə tutulan bu proqram girişdən, elmi redaktorun ön sözündən, izahat vərəqindən, 3 fəsil, 15 mövzudan və mündəricatdan ibarət olmaqla 68 səhifəni əhatə edir.

Ali məktəblərin professor-müəllim və tələbə kollektivinin tədris prossesində istifadə edilməsinə təqdim edilən "Beynəlxalq investisiyalar" kursunun proqramı bir neçə ilin tədris-metodiki təcrübəsi əsasında Azərbaycan Dövlət İqtisad Universitetinin - UNEC "Beynəlxalq İqtisadiyyat" kafedrasının peşəkar müəllimləri tərəfindən ilk dəfədir ki, hazırlanmışdır. Kursun proqramında öz əksini tapmış mövzular Avropa ölkələrindən Litvanın Vitautas Maqnus Universiteti, Finlandiyanın Vaasa Universiteti, Almaniyanın Fridrix Şiller Yena Universiteti, Böyük Britaniyanın Nyukasl Universiteti, Türkiyənin Uludağ, Sakarya və Hacettepe Universitetlərinin dərslik və dərs vəsaitlərinin mövzuları ilə əlaqələndirilmiş, mövzular ətrafındakı suallar nəzərə alınaraq daha təkmil və müasir tələblərə cavab verən tədris proqramı müəllim və tələbələrin istifadəsinə verilmişdir.

Beynəlxalq İnvestisiyalar kursu üzrə proqramın hazırlanması və nəşr edilərək işıq üzü görməsi ilk təşəbbüs olduğundan qüsursuz deyildir. Öz iradlarını və tövsiyyələrini bildirən oxuculara müəlliflər əvvəlcədən öz minnətdarlığını bildirir.

**Elmi redaktor i.e.d., prof. Ə.C.Muradov**

# Giriş

Dünya iqtisadiyyatının qloballaşması prosesi getdikcə daha çox beynəlxalq iqtisadi fəaliyyət sferasını özündə ehtiva edərək, təsərrüfatçılıq subyektlərinin qarşılıqlı əlaqəliyində yeni formalarının yaranışı və inkişafına təsir göstərir. Bu təsir miqyaslı olaraq investisiyalar sahəsini də əhatə edir. Bunun nəticəsidir ki, milli sərhədləri aşan kapital ixracının artım templəri dünya istehsalı və dünya ticarəti templərini üstələyir. Belə şərait isə dünya iqtisadiyyatında investisiya resurları sahəsində beynəlxalq rəqabəti kəskinləşdirir, həmin sferaya daha çox yeni dövlət və təşkilatların qoşulmasına təkan verir. Bütün bunlar isə ümumilikdə elmi-tədqiqat mahiyyəti kəsb edərək, yeni tədris fənnlərinin yaranışını stimullaşdırır.

Təqdim edilən "Beynəlxalq iqtisadiyyat" fənni özünün spesefikliyi və elmi-informatik tutumu ilə fərqlənir. Müasir zamanda ölkələrin qlobal iqtisadiyyata qovuşması sahəsində beynəlxalq investisiyaların yeni dünyagörüşün formalaşması zərurətini şərtləndirən cəhəti isə öyrənilən kursun əhəmiyyətinii bir qədər də artırır. Belə reallıq həm də, tələbələrin gələcək praktiki işlərində, xüsusən xarici bazarlarda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsində və eyniliklə dövlət xarici invesyisiya siyasətinin hazırlanması və reallaşdırılmasında da aktual səciyyə daşayır.

Kursun predmetini beynəlxalq investisiya fəaliyyətinin məzmunu, onun dünya iqtisadiyyatında yaranış xüsusiyyətləri və tənzimləmə sistemləri təşkil edir. Tədris proqramı 3 fəsil olmaqla 15 mövzunu özündə birləşdirir. Burada fənnin mahiyyəti, konseptual əsasları, məqsədi, digər uyğun profilli fənlərlə qarşılıqlı əlaqəliyinin şərhi verilir. Tələbələrin mütəxəssis kimi formalaşması, onların analitik təfəkkürün inkişaf etdirilməsində tədris olunan fənnin əhəmiyyəti əsaslandırılır.

## İzahat vərəqi

İqtisad elmi istər daxili və xarici kapitalların və istərsə də milli və beynəlxalq kapitalların öyrənilməsinə oxşar və fərqli cəhətlərdən yanaşılmasını qarşıya qoyur. İnvestisiyalarla bağlı ifadələrdə belədir. Qeyd edilən anlayış və terminlərin eyniliyi və ayrılığı yalnız onların hərfi və predmet mənasına görə deyil, daha çox daxili struktur cəhətlərini ifadə edən mahiyyət mənasına görədir. Yəni, hər iki anlayış çox saylı mənada işlənsə də hər halda onların klassik və ənənəvi izahı diqqəti daha çox cəlb edir və tələbə auditoriyasında şərh olunması da çox asanlaşır. Belə ki, investisiya dedikdə iqtisadi subyektlərin gəlirinin istehlaka deyil, yığıma, yəni resurs qismində istehsal-təsərrüfat obyektlərinin, bina və qurğuların, maşın və avadanlıqların, texnoloji proseslərin və sair bu kimi əsas fondların artırılmasına yönəldilən vəsaitlər başa düşülür.

**Kursun (*fənnin*) təsviri.** ”Beynəlxalq investisiyalar” kursu ayrı-ayrı ölkələrin milli sərhədlərindən kənara çıxan, xarici ölkələrin ərazisində yaradılan kapital qoyuluşlarının əsas hissəsini özündə birləşdirir. Bu kurs tarixən özünə geniş yer tapan kapital ixracının müəyyən inkişaf səviyyəsində formalaşan beynəlmilli investisiyaların xarici ölkələrə miqrasiyasını öyrənir. Beynəlxalq investisiyalar kursu beynəlxalq iqtisadiyyatın tərkib hissəsi olmaqla, həmin iqtisadiyyatın xüsusi sahəsini təşkil edir, inkişaf qanunauyğunluqlarını, resurs potensialını, inkişaf istiqamətini müəyyən etməyə imkan verir.

**Kursun məqsədi.** Tələbələrdə beynəlxalq investisiyaların forma və növ müxtəlifliyi, investisiya mühiti və rejimi haqqında, ixracatçı-idxalatçı ölkələrin

qərar qəbul etmələrinin ardıcıllığı, Azərbaycan iqtisadiyyatına yönəldilən xarici investisiyalardan məqsədə uyğun istifadə edilməsinin mövcud vəziyyəti və perspektivləri istiqamətində biliklərə yiyələnməkdən ibarətdir.

**Məqsədə nail olmaq, kursu müvəffəq mənimsəmək üçün tələbələrə zəruridir:**

- ❖ bütün mühazirə və praktiki məşğələlərdə iştirak etmək;
- ❖ mövcud tədris proqramında nəzərdə tutulan tapşırıqların hamısını vaxtında yerinə yetirmək;
- ❖ fənn problemlərinin anlaşılmayan məsələlərinin müəllimdən soruşulmasından çəkinməmək;
- ❖ mövcud tədris fənninin öyrənilməsinə xüsusi məsuliyyət hissi ilə yanaşmaq;
- ❖ konspektləşmələr aparmaq.

**Əsas tədris texnologiyaları.** fənnin uğurlu mənimsənilməsi və səmərəliliyinin artırılması üçün tədris prosesində ənənəvi pedoqoji texnologiyalaradan və həm də aktiv bilik vermənin interaktiv, izahedici-ilyustrativ və digər mütərəqqi forma və metodlarından istifadə olunur.

**Kursun bakalavriatın ümumi tədris proqramları strukturunda yeri.** “Beynəlxalq investisiyar” fənni bakalavr hazırlığı sahəsində “Dünya iqtisadiyyatı” ixtisası üzrə peşəkar fənlər blokuna aid edilir. “Beynəlxalq investisiyar” fənnin öyrənilməsi tələbələrin öncə öyrənikləri “Dünya iqtisadiyyatı”, “Beynəlxalq iqtisadi münsibətlər”, “Maliyyə”, “Statistika”, “Beynəlxalq biznes”, “Beynəlxalq maliyyə-kredit münasibətləri” və s. bu kimi fənlərinə əsaslanır.

**Tədris alanın beynəlxalq investisiyalar kursunun mənimsənilməsi nəticəsində formalaşan şəriştəsi.** Kurs aşağıdakı səriştəliyin mənimsənilməsini təmin edir:

- beynəlxalq iqtisadiyyat sferasında baş verən sosial əhəmiyyətli problem və proseslərin təhlil edilməsi və gələcək inkişafının proqnozlaşdırılması qabiliyyətliliyini;
- müasir beynəlxalq iqtisadiyyat subyektlərinin fəaliyyətini xarakterizə edən zəruri iqtisadi və sosial-iqtisadi göstəricilər üzrə ilkin məlumatların toplanması və təhlil edilməsi bacarığını;
- sosial-iqtisadi proses və hadisələrin üzrə milli və beynəlxalq statistika məlumatlarının təhlil və şərh olunması, habelə, sosial-iqtisadi göstəricilərin dəyişmə meylinin müəyyən edilməsi qabiliyyətliliyi;
- milli və beynəlxalq tədqiqatçılar tərəfindən müvafiq istiqamətdə alınan nəticələrin tənqidi qiymətləndirilməsi və ümumiləşdirilməsi, həmçinin elmi aktuallıq kəsb edən problemlərinin aşakara çıxardılması və formalaşdırılması bacarığı;
- beynəlxalq biznes sferasında şirkətin investisiya siyasəti üzrə tədbirlərin hazırlanmasında və yerinə yetrilməsində iştirak etmə qabiliyyətliliyi;
- beynəlxalq valyuta, maliyyə və kredit əməliyyatlarının aparılması məsələsində milli və beynəlxalq təcrübənin ümumiləşdirilməsi bacarığı.

**Kursun mənimsənilməsi nəticəsində tədris alan:**

***Bilməlidir:***

- müasir beynəlxalq iqtisadiyyat sferasının əsas qanunauyğunluqlarını və inkişaf meyllərini;
- beynəlxalq investisiyarla bağlı əsas anlayışları;
- müxtəlif milli iqtisadiyatlar sistemində investisiyalaşmanın və investisiyaların idarəedilməsi xüsusiyyətlərini;
- Azərbaycan iqtisadiyyatına yönələn beynəlxalq investisiyalarının əsas növlərini;
- xarici investisiyar üzrə fəaliyyət göstərən müəssisələrin xarakterik cəhətlərini;
- azad iqtisadi zonaların mahiyyəti, tipləri və xüsuasiyyətlərini.

***Bacarmalıdır:***

- xarici investisiyaların həyata keçirilməsinin səmərəliliyi və məqsədəuyğunluğunun təhlilini aparmaq üçün beynəlxalq iqtisadiyyatın inkişaf istiqamətləri və formaları haqqında biliklər sistemindən istifadəni;
- səmərəli investisiya layıhələrinin seçimi üzrə qərar qəbul etməni;
- maliyyə məhdudiyyətlərini nəzərə almaqla müəssisənin beynəlxalq investisiya portfelinin formalaşdırmasını;
- investisiya bazarlarının təhlilində xarici investisiyaların tənzimlənməsi üzrə müvafiq qanunvericiliyi tətbiq etməni;
- müstəqil olaraq investisiyaların iqtisadi qiymətləndirilməsi nəzəriyyəsi və onlardan praktikada istifadə edilməsi üzrə biliklərin əldə edilməsini;

*Malik olmalı:*

- ❖ fənn üzrə xüsusi leksika və terminologiyaya;
- ❖ beynəlxalq investisiyaların effektivliyinin təhlili üzrə metod və alətlərə.

**Proqramın orjinallığı.** Fənnin proqramında öz əksini tapan əksər mövzular mahiyyətcə dünyanın aparıcı unversitetlərində tətbiq edilən müvafiq tədris texnologiyaları və ədəbiyyatlarını özündə ehtiva edir. Müəlliflər tərəfindən yerinə yetrilən monoqrafiyalar, işlənilən elmi əsərlər, hazırlan dərsliklər və dərs vəsitləri kursun tam mənimsənilməsinə imkan yaradır.

**Kursun nəticələri.** Kurs öyrənildikdən sorna tələbələr kapitalın beynəlxalq hərəkəti ilə beynəlxalq investisiya qoyuluşlarının ümumi və fərqli cəhətləri, inkişaf qanunauyğunluqları barədə hərtərəfli biliyə malik olacaq, birbaşa xarici investisiya qoyuluşlarının inkişafda olan ölkələrin, o cümlədən Azərbaycanın iqtisadiyyatında yaratdığı nəticələr barədə düzgün fikir söyləməyə və qiymət verməyə nail olacaqlar.

**Kursun mühazirə mətnləri.** Fənnin mövzuları üzrə mühazirə mətnləri və nümunəvi testləri elektron formada müəllimin elektron kabinetində, Universitetin elektron kitabxanasında yerləşdirilib. Elektron kitabxananın web ünvanı: http://library.unec.edu.az.

**Kursun təsviri və ümumi şəkildə şərhi.** Fənn tədris ilinin I semestrində həftədə ***2 dəfə (4 saat)*** keçilməklə ***60 saata*** tamamlanır.

Kursa sistemləşdirilib daxil edilən mövzuları şifahi və yazı Beynəlxalq investisiyaların əsaslarını tələbələrə mənimsətməklə onlarda düzgün yazmaq, oxumaq, müəllimin, tərəf müqabillərinin ifadə və şərhlərini, eləcə də tədris yönümlü slaydları dinləyib-anlama, situativ

məqamlarda sual-cavaba qoşulma və həmin situasiyanı davam etdirmə vərdişərini yaratmağa istiqamətlənib.

Kursda əsas diqqət müasir Beynəlxalq investisiyalarla bağlı problemləri bu vaxta qədər bilməyənlərə investisiya qoyuluşlarının forma və növ müxtəlifliyi müxtəlif situasiyalarda mənimsəməyə yönəlmişdir.

Bunlara nail olmaq üçün təqdim olunan dərslik və dərs vəsaitlərindəki sistemləşdirilmiş mövzuları, onların konkret sualları və cavabları iqtisadi bilik kimi hələ orta məktəbdən mənimsənilmişdir. Ali məktəbdə isə onu elm kimi yenicə öyrənilməyə başlanılmış beynəlxalq investisiyaların bir sıra səciyyəvi cəhətlərini kursun təsvirinə daxil etməyi zəriri bilinmişdir.

Vurğulanmalıdır ki, ümumi iqtisadiyyata girişin xüsusiyyətlərini nəzərə alaraq onun konkret bir sahəsi kimi formalaşan beynəlxalq investisiyaların öyrənmə obyekti və predmetinin öz xüsusiyyətləri vardır. Bu xüsusiyyətlər kursun tədrisinin elə ilk dərslərindən təqdim olunur. Belə reallıq isə beynəlxalq investisiyalar kursunun öyrənilməsinin şifahi-yazı pilləsində tələbələrin özlərinin sərbəst hiss etməsinə geniş imkanlar yaradır.

O, da qeyd olunmalıdır ki, Beynəlxalq investisiyaların tematik quruluşu iqtisad yönümlü digər fənnlərə nisbətən dəqiq beynəlxalq qaydalarla zəngindir. Bu qaydaların isə daha dolğun mənimsənilməsi üçün onların əsas mahiyyət və məzmununu əks etdirən müvafiq cədvəl və sxemlərin təqdimatı nəzərdə tutulur. Həmin cədvəl və sxemlərdə Beynəlxalq investisiyaları ixrac subtyektlərinə, istifadə olunma xarakterinə, müddətinə görə formaları, ixracın müasir meylləri, birbaşa xarici investisiyaları həyata keçirən TMK-ları, onların aktivlərinin həcminin müəyyənləşdirilməsi və s. nümayiş etdiriləcəkdir.

Tematikaların nə dərəcədə mənimsənilməsini müyyənləşdirmək üçün bir sıra müvafiq tapşırıqlar, test çalışmaları təqdim olunur. Bu isə tələbələrə onları düzgün həll etməklə yanaşı, aldıqları bilikləri möhkəmləndirib, düzgüm formalaşdırmasına yardımçı olur.

Kurs boyu beynəlxalq investisiya qoyuluşu prossesini praktiki vərdişə çevirmək üçün tələblər həmçinin müəllimlərdən müvafiq tövsiyələr alacaqlar. Bu çətin yolda yorulmamaq, onu daha maraqlı və cəlbedici etmək üçün hər bir dərs materialını müasir Azərbayan iqtisadiyyatına yönəldilən xarici investisiyaların mövcud vəziyyəti müşayət edəcəkdir. Bir sözlə, beynəlxalq investisiyalarla bağlı bu kurs sayəsində tələbələr hər bir mövzu və mövzuya uyğun sualları bilmək vərdişinə yiyələnəcək, onun səmərəli mənimsənilməsinə nail olacaqlar. Tələbələr öyrəndikləri sadəliklər əsasında daha mürəkkəbliklərə doğru gedən yolda büdrəməyəcək, öyrəndikləri biliklər əsasında formalaşan geniş iqtisadi təfəkkürə malik olacaqlar.

**Davamiyyət tələbləri və davranış qaydaları.**

1.Tələbə cədvəl üzrə keçirilən dərslərdə iştirak etməlidir. Dərslərdə ardıcıl iştirak mənimsəmənin ilkin şərtidir. Dərs buraxma kursun məqsədinə çatmaqda həm müəllim, həm də tələbə üçün məqbul sayılmayan mənfi hallara gətirib çıxara bilər.

2.Dərsə gecikmənin özü də dərs buraxma halı kimi qəbuledilməzdir. Çünki, bunların hər ikisi tədris prossesini pozur, tələbənin ona əvvəlcədən təqdim edilən sillabusdakı materialı tam mənimsəməsinə mane olur. Son nəticədə isə o, öz öhdəsinə düşən vəzifəni yerinə yetirmir, imtahan verib lazımi krediti toplaya bilmir, yaxşı halda isə bu kredit lazımi keyfiyyətdə olmur.

3.Tələbə dərs vaxtı əl telefonundan istifadə etməməlidir, telefonlar səssiz rejimdə saxlanılmalıdır.

5.Dərs vaxtı tələbənin xüsusi zərurətlər olmadan (*səhhətlə bağlı hallar istisna olmaqla*) müəllimdən icazə alıb auditoriyadan çıxması da məqbul hesab edilmir və bu hallara qadağa qoyulur.

6.Tələbələr həmçinin fasilədən də düzgün istifadə etməlidirlər.

7.Məşğələnin keçirilməsinə maneçilik törədən tələbə üç dəfə xəbərdarlıq aldıqdan sonra, bu hal yenə davam edərsə, o zaman tələbə məşğələdən xaric olunur və müəllim tərəfindən dekanlığa yazılı surətdə məlumat verilir.

**Fənn üzrə tələblər, tapşırıqlar.**

1.Tələbələr verilən tapşırıqları sərbəst şəkildə yerinə yetirə bilmələri üçün ilk olaraq auditoriyada izah olunan dərsə diqqətlə qulaq asmalıdırlar.

2.Yazılı verilən bütün tapşırıqlar mütləq yazılı şəkildə cavablandırılnmalıdır. Bu məhz yazı vərdişlərinin inkişaf etdirilməsi üçündür.

3.Yeni dərsin sualları öyrənilməli və təcrübi tapşırıqlar yerinə yetirilməlidirlər.

4.Sillabus üzrə tədris olunan mövzuların matriallarını mənimsəmək, onları müəllim və tələbə: tərəf-müqabili ilə izah etmək, izahat üçün sadə cümləəri oxuyub-başa düşmək üçün söz ehtiyatına malik olmaqm lazımdır. Sərbəst iş materiallarını müəllimdən və ya kafedradan götürüb yerinə yetirmək və müəyyənləşdirilmiş vaxtda qiymətləndirmək üçün müəllimə təqdim etmək, nöqsanları düzəltmək üçün onları yenidən işləmək.

**Attestasiya**. Kursun mənimsənilməsi imtahanla attestasiya olunur.

Fənn üzrə kurs işi və istehsal təcrübəsi nəzərdə tutulmamışdır.

**Qiymətləndirmə.** Kursun mənimsənilməsi 100 bal sistemi ilə həyata keçirilir. Fənn üzrə ümumi 100 balın 50-si semestr ərzindəki fəaliyyətə, 50-i isə imtahanın nəticələrinə görə hesablanır.

Semestr ərzində (*imtahana qədər*) toplanmalı 50 balın komponentləri:

- 10 bal - dərsə davamiyyət;
- 10 bal - sərbəst iş;
- 30 bal - seminar dərslərindən toplanacaq ballar;

Semestr ərzində 10 sərbəst iş tapşırığı verilir və hər tapşırığın yerinə yetirilməsi 1 balla qiymətləndirilir.

Sərbəst iş orjinal olmalı (*plagiat yolverilməzdir*) tələbənin fərdi fikirlərinin məcmusu ifadə etməlidir.

Sərbsət iş yazılı - "word faylı" formasında (*şrift 12*), həcmi 1-2 səhfə yazılmalı, kağız daşıyıcıda və ya elektron formada təqdim edilməlidir.

**Sərbəst işlərin mövzuları və təhvil verilməsinin tarixi**

| Mövzular | Həftə sırası |
|---|---|
| 1.Beynəlxalq investisiyalar kursunun funksiyaları və onların xarakteristikası.<br>2.Beynəlxalq investisiyalar kurunun öyrənmə obyekti və predmetinin tərifi.<br>3.Birbaşa investisiya axınları və inkişaf etmiş ölkələrin TMK-ı | 4-cü |
| 1.Beynəlxalq kapital bazarı və onun inkişaf meylləri.<br>2.Kapitalların beynəlxalq hərəkətinin əsas məqsədi və ona çatmaq vasitələri.<br>3. Azərbaycanın Milli investisiya siyasətinin xüsusuiyyətləri | 5-ci |
| 1.İnvestisiya (*kapital*) ixracının subyektlərə görə formaları.<br>2.Beynəlxalq investisiya qoyuluşlarının istifadə olunma xarakterinə görə formaları.<br>3. İnvestisiyaların tənzimlənməsinin Qərbi Avropa Modeli | 6-cı |
| 1.Beynəlxalq investisiya qoyuluşlarının müddətə görə formaları.<br>2.Xarici investisiya fəaliyyətində liberallaşma<br>3. Xarici investisiyaların qarşılıqlı müdafiəsi və həvəsləndirilməsi haqqında razılaşmalar | 7-ci |
| 1.Xarici investisiya cəlb edən ölkələrin iqtisadi əlamətləri.<br>2.Konkret ölkələrə investisiya axınlarının cəlb olunmasında dünya təcrübəsi.<br>3.Beynəlxalq bazarlarda TMK-ın yaratdığı rəqabət mühiti | 8-ci |

| Mövzular | Həftə sırası |
|---|---|
| 1.Xarici ticarət siyasətinin liberallaşdırılması şəraitində investisiya rejimi.<br>2.Xarici investorların təhlükəsizliyinə verilən dövlət zəmanətinin formaları<br>3.Birbaşa investisiya qoyuluşları üzrə mükəmməl hüquqi bazanın yaradılması istiqamətləri | 9-cu |
| 1.Beynəlxalq investisiya sazişlərinin (*BİS*) məzmununun razılaşdırılmasının əsas istiqamətləri.<br>2.Beynəlxalq investisiya sazişlərinin *(BİS*) və başqa müqavilələrin bağlanılmasının inkişaf meylləri.<br>3.Beynəlxalq investisiya layihələrinin həyata keçirilməsində risk amilindən istifadə | 10-cu |
| 1.NAFTA çərçivəsində beynəlxalq investisiyaların tənzimlənməsi.<br>2.ASEAN çərçivəsində qarşılıqlı investisiya axınlarının liberallaşdırılması<br>3.DTT-nin beynəlxalq investisiya sazişlərinin bağlanmasında rolu. | 11-ci |
| 1.Dünya Bankının investisiyalara zəmanət üzrə çoxtərəfli Agentliyi.<br>2.Dünya Bankının uzunmüddətli kapital qoyuluşlarının inkişaf istiqamətləri<br>3. Azərbaycanın qeyri-neft sektorunda birbaşa xarici investisiyalar | 12-ci |
| 1.Birbaşa investisiya qoyuluşları və dünya bazarında rəqabət mühitinin canlanması.<br>2.Beynəlxalq rəqabət mübarizəsi və inhisarlaşma.<br>3.Azərbaycanda xarici investisiya qoyuluşlarının sahəvi strukturu. | 13-cü |

Tələbənin təlim fəaliyyəti semestr ərzində ən azı üç dəfə yazılı formada 10 ballıq sistemlə qiymətləndirilir və qrup jurnalına yazılır. Bu zaman həmçinin seminar ərzində ən azı 2 dəfə kollekvium keçirilir. Kollekviumda iştirak etməyən tələbələrin balı jurnalda 0 (*sıfır*) formasında qeyd olunacaqdır.

Kurs üzrə imtahan 50 bal üzrə test üsulu ilə keçirilir.

Test tədricən 700-1000 sual çərçivəsində formalaşacaq, cavablar bal sistemi ilə hesablanacaqdır.

İmtahanda minimum 17 bal toplanmadıqda, imtahana qədər yığılan ballar nəzərə alınmır.

İmtahan və imtahana qədər toplanan ballar cəmlənir və yekun miqdarı aşağıdakı kimi qiymətləndirilir:

**A** - "Əla" - 91-100;
**B** - "Çox yaxşı" - 81-90;
**C** - "Yaxşı" - 71-80;
**D** - "Kafi" - 61-70;
**E** - "Qənaətbəxş" - 51-60;
**F** - "Qeyri-kafi" - 51 baldan aşağı.

Semestr və imtahan balları toplandıqda 51 baldan az olarsa kredit qazana bilmir.

**Hörmətli tələbələr!**

Beynəlxalq İnvestisiyalar fənni ixtisas fakültələrində mühazirə və praktik məşğələ kimi V semestrdə tədris olunur.

Xatırladaq ki, öyrəndiyiniz Beynəlxalq İnvestisiyalar Sizin üçün həmin kurs haqqında bilik və düşüncələri qazanmaq imkanı olmaqla yanaşı, həm də investisiya ixrac edən və idxal edən ölkələr, onların mövcud durumu və perspektivləri, investisiyaların beynəlxalq hərəkəti haqqında geniş məlumat mənbəyidir. Bundan əlavə Azərbaycan Respublikasının iqtisadiyyatına xarici investisiya qoyuluşları həyatınızı müəyyənləşdirməklə, yeni iş yeri əldə olunmasında Sizə əlverişli şans da ola bilər.

Tədrisinə ***60 saat*** ayrılan mühazirə və praktik dərsi qeyd etdiyimiz semestr və kurslarda (*30+30*) mənimsəməklə və kursun sonunda imtahandan müvəffəq çıxmaqla, Siz ***4*** kredit (*2+2*) qazanmış olursunuz. Kursu hansı məqsədlərlə, hansı ədəbiyyatlarla, hansı metod və üsullarla öyrənilməsi, tədrisin sonunda Sizin əldə edəcəyiniz bilik, vərdiş və bacarıqların növü, sillabusun içindəki hər bir mövzuda, həmin mövzunun materialı, Sizin müəllimlə və sərbəst yerinə yetirməli olacağınız işlərlə bağlı konkret halda göstərilir.

Təqdim etdiyimiz kursun müvəffəqiyyətlə yerinə yetirilməsi və qiymətləndirilməsində ən vacib cəhət prosesə hər iki maraqlı tərəfin (*müəllim və tələbənin*) vəzifə və hüquqlarını, məsuliyyət hissini eyni dərəcədə dərk etməklə yanaşmasıdır ki, bunlar da ayrı-ayrı detalları ilə sillabusun müvafiq bölmələrində göstərilmişdir. Sizə bu semestrdə uğurlar arzu edirik!

## “Beynəlxalq İnvestisiyalar” fənninin tematik planı və tədris formaları üzrə saatların bölgüsü

| № | Mövzuların adı | Cəmi (*saat*) | Mühazirə (*saat*) | Seminar (*saat*) |
|---|---|---|---|---|
| **I Fəsil. Beynəlxalq (*beynəlmilli*) iqtisadiyyatda investisiya fəaliyyətinin ümumi əsasları və başlıca nəzəriyyələri** | | **16** | **8** | **8** |
| 1 | ***Mövzu 1***. Beynəlxalq investisiyalar kursunun funksiyaları, öyrənmə obyekti, predmeti və tədqiqat metodu | 4 | 2 | 2 |
| 2 | ***Mövzu 2.*** Kapitalın beynəlxalq hərəkətinin ilkin şərtləri və investisiya siyasəti konsepsiyaları | 4 | 2 | 2 |
| 3 | ***Mövzu 3.*** Kapital ixracının (*xarici investisiyaların*) forma və növ müxtəlifliyi, onların tənzimləmə xüsusiyyətləri | 4 | 2 | 2 |
| 4 | ***Mövzu 4.*** Beynəlxalq istehsalın formalaşmasının əsasları və istiqamətləri | 4 | 2 | 2 |
| **II Fəsil. Beynəlxalq investisiyaların hərəkətinə şərait yaradan mühit və işgüzar fəaliyyət** | | **24** | **12** | **12** |

| № | Mövzuların adı | Cəmi (*saat*) | Mühazirə (*saat*) | Seminar (*saat*) |
|---|---|---|---|---|
| 5 | ***Mövzu 5.*** Beynəlxalq investisiyaların cəlb olunmasının meyarları. | 4 | 2 | 2 |
| 6 | ***Mövzu 6.*** Beynəlxalq investisiya rejimləri: İnvestisiyaların cəlb olunmasında qərarların qəbulu qaydaları | 4 | 2 | 2 |
| 7 | ***Mövzu 7.*** İnvestisiya siyasətində milli və beynəlmilli səviyyələrdə formalaşan başlıca istiqamətlər | 4 | 2 | 2 |
| 8 | ***Mövzu 8.*** Beynəlxalq iqtisadiyyatda milli investisiya siyasəti və dünya təcrübəsi | 4 | 2 | 2 |
| 9 | ***Mövzu 9.*** Beynəlxalq investisiyaların geoiqtisadi əməkdaşlıq müstəvisində tənzimlənməsi | 4 | 2 | 2 |
| 10 | ***Mövzu 10.*** Dünya Bankı beynəlxalq investisiyaların tənzimlənməsi sistemində | 4 | 2 | 2 |
| **III Fəsil. Beynəlxalq investisiya və beynəlxalq rəqabət qabiliyyətliliyin artırılması imkanları.** | | **20** | **10** | **10** |
| 11 | ***Mövzu 11.*** Birbaşa xarici investisiya qoyuluşları və | 4 | 2 | 2 |

| № | Mövzuların adı | Cəmi (*saat*) | Mühazirə (*saat*) | Seminar (*saat*) |
|---|---|---|---|---|
| | beynəlxalq rəqabət qabiliyyətliliyin artırılması | | | |
| 12 | ***Mövzu 12.*** Beynəlxalq investisiya riskləri və onların idarə olunması | 4 | 2 | 2 |
| 13 | ***Mövzu 13*** İnvestisiyaların beynəlxalq hərəkətinin təşkilati-hüquqi əsasları | 4 | 2 | 2 |
| 14 | ***Mövzu 14*** Dünya Ticarət Təşkilatı çərçivəsində beynəlxalq investisiyaların tənzimlənəsi | 4 | 2 | 2 |
| 15 | ***Mövzu 15.*** Azərbaycanda beynəlxalq investisiyalar: mövcud vəziyyət və perspektivlər | 4 | 2 | 2 |
| **Yekun** | | **60** | **30** | **30** |

## I Fəsil. Beynəlxalq iqtisadiyyatda beynəlxalq investisiya fəaliyyətinin ümumi əsasları və başlıca nəzəriyyələri

### Mövzu 1.

### Beynəlxalq investisiyalar kursunun funksiyaları, öyrənmə obyekti, predmeti və tədqiqat metodu

### Mövzunun proqram sualları

İnvestisiya anlayışı. Daxili və xarici investisiyalar: eynilik və fərqlilik. İqtisadi sistemdə fəaliyyət göstərən kapitalla investisiyaların fərqləndirilməsinə elmi yanaşmalar. Kapitalın, investisyanın yaranması mənbələri. Ölkə iqtisadiyyatında stabilliyinin təmin olunnması baxımından investisiyaların əhəmiyyəti. Makroiqtisadi yanaşma və kapital bazarına dair Aliber nəzəriyyəsi. Kapitalların beynəlxalq axınına dair Kodzima nəzəriyyəsi. Milli və beynəlxalq investisiyaların fərqli cəhətləri və xüsusiyyətləri.

Beynəlxalq investisiyalar kursunun funksiyaları. Ölkədə stabilliyin qorunması, iqtisadiyyatın beynəlxalq rəqabətqabiliyyətli etməsi, beynəlxalq iqtisadi təşkilatlarla konstruktiv münasibətlərin qurulması, liberal vergi və gömrük rejimlərinin tətbiq edilməsi. Birbaşa və dolayı beynəlxalq investisiyalar. Ölkədə beynəlxalq investisiyalar üçün münbit şəraitin olması istiqamətləri. Beynəlxalq investisiya mühitində yeni dövr: qlobal investisiya layihələri.

Beynəlxalq investisiyalar fənninin strukturu, tərkib hissələri, prioritetlərinin müəyyən edilməsi. Fənnin öyrənmə obyekti.

Fənnin öyrənmə obyektini müəyyən-ləşdirməklə fənnin predmetinin aydınlaşdırılması.

Beynəlxalq investisiya kursunun obyekti ilə predmetinin, qarşılıqlı əlaqəsi. Kursun obyekti və predmetinin məzmunun formaca şərtlənməsi.

Beynəlxalq investisiya fənninin öyrənilməsində elmi metodologiyadan istifadə. Elmi metodologiyanın üsullarının tətbiqi. Fənnin predmetinin öyrənilməsi üçün istifadə olunan tədqiqat metodunun xüsusiyyətləri. Elmi abstraksiyadan istifadə. Təhlili və sintezin tətbiqi. Tarixiliklə məntiqliyinin vəhdəti, induktiv və deduktiv metodun tətbiqində xüsusiyyətlər.

## Təcrübi dərsin sualları

1.1.İnvestisiya anlayışının mahiyyəti: Milli (*daxili*) və beynəlxalq investisiyalar.

1.2.Ölkədə sabit iqtisadi inkişafın təmin olunmasında investisiyaların əhəmiyyəti.

1.3.Beynəlxalq investisiyalar kursunun funksiyaları və onların xarakteristikası.

1.4.Beynəlxalq investisiyalar fənninin strukturu və tərkib hissələri.

1.5.Beynəlxalq investisiyalar kursunu öyrənmə obyekti və predmetinin tərifi.

1.6.Kursun obyekti ilə predmetinin qarşılıqlı əlaqəsi və şərtlənməsi.

1.7.Beynəlxalq investisiyaların öyrənilməsində elmi metodologiyanın üsullarından istifadə. Kursun tədqiqat metodu.

## Ədəbiyyat

1.Xasbulatov R.İ. Beynəlxalq iqtisadi münasibətlər. Bakalavr üçün dərslik. Rus dilindən tərcümə. Bakı: 2014, s. 347-351.

2.Koçetov E.Q. Geoiqtisadiyyat. dünya iqtisadi məkanının mənimsənilməsi. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2015, 438 s.

3.Sabiroğlu Natiq. Qloballaşma və xarici investisiyalar. Bakı: 2006, s. 13-28.

4.U.Başoğlu, N.Ölmezoğlullari, İ.Parasiz. Dünya Ekonomisi: Küreselleşme, Finansal Kurumlar ve Küresel Makro Ekonomi. Ezgi Kitabevi. Bursa, 2001.

5.Нешитой А.С. Инвестиции: Учебник. М.: "Дашков и К", 2012, 372 с.

6.Уильям Ф. Шарп, Гордон Дж. Александер, Джеффри В. Бэйли. Учебник/Инвестиции. М.: Инфра-М, 2001, 1025 с.

## Mövzu 2.

## Kapitalın beynəlxalq hərəkətinin ilkin şərtləri və investisiya siyasəti konsepsiyaları

### Mövzunun proqram sualları

Kapital ixracı kapitalın beynəlxalq hərəkətinin konkret ifadə formasıdır. Kapitalın beynəlxalq hərəkətinin dünya regionların inkişafına təsiri. Kapitalın beynəlxalq hərəkətinə dair. R.Nurkse modeli. Kapitalın beynəlxalq hərəkətinin tənzimlənməsinə dair K.İnenson konsepsiyası. Kapital ixracının dünya maliyyə mərkəzlərinin formalaşmasında rolu. Xaricə ixrac olunmuş kapitalın həcmini böyütmək və investisiya qoyuluşu qabiliyyətini

məhsuldar etmək. Kapitalın ölkədən xaricə çıxması daha yüksək mənfəətə yönəlməsi əsas meyar kimi. Daha yüksək orta mənfəət norması formalaşan regionlara kapitalların qaçışı.

Kapitalın beynəlxalq hərəkəti maliyyə resurslarının hərəkətidir. Maliyyə resurslarının beynəlxalq hərəkətinin investisiyaların hərəkətinə çevrilməsi. Kapital ixracında dövlətin rolu və kapital ixracına dövlət müdaxiləsi. Müasir dövrdə birbaşa investisiyaların payının artması. Sənaye ölkələri ilə inkişaf etməkdə olan ölkələr arasında beynəlxalq kredit münasibətlərinin inkişafı.

Kapitalın miqrasiyası və ölkə üçün sərbəst maliyyə vasitələrindən səmərəli istifadə problemi. Sərbəst maliyyə vəsaitlərindən ölkələrarası iqtisadi əlaqələrdə istifadə etmək imkanı. Problemi həll etməyin zəruriliyi və əhəmiyyəti. Malların ixracının, həcm və strukturunun genişləndirilməsndə kapitalın miqrasiyasının rolu. Kapitalın miqrasiyası və ETT-nin gücləndirilməsi zəruriliyi.

Kapitalın beynəlxalq hərəkətinin müasir dövrdə əsas xüsusiyyətləri. İnkişaf etmiş sənaye ölkələri arasında kapitalın miqrasiyası. Ölkədən kapital axının meylinə dair Horrodun "iqtisadi dinamika" modeli. Beynəlxaq maliyyə təşkilatlarının artması, qloballaşma fonunda beynəlxalq investisiyaların hərəkətinin önəmli rolu.

Beynəlxalq kapital bazarı qlobal iqtisadiyyatın əsas istiqamətverici bazasıdır. Beynəlxalq kapital bazarı müasir Beynəlxalq İqtisadiyyatın həlledici sahələrindən biridir. XX əsrin sonu və XXI əsrin əvvəli beynəlxalq kapital bazarının inkişaf prosesi. Beynəlxalq investisiyalara xarici ticarətin qarşılıqlı asılılığına dair Haymer konsepsiyasının strateji əhəmiyyəti.

## Təcrübi dərsin sualları

2.1.Kapitalın formalaşdığı baza ölkədən xaricə axının (*yerdəyişməsinin*) ilkin şərtləri.

2.2.Kapitalların beynəlxalq hərəkətinin əsas məqsədi və ona çatmaq vasitələri.

2.3.Kapitalların yerdəyişməsinin (*miqrasiyasının*) əsas səbəbləri və nəticələri.

2.4.Sənaye ölkələri ilə inkişafda olan ölkələr arasında beynəlxalq kredit əlaqələri.

2.5.Qloballaşma və beynəlxalq investisiyaların rolunun artması.

2.6.Müasir dövrdə kapitalların beynəlxalq hərəkətinin başlıca xüsusiyyətləri.

2.7.Beynəlxalq kapital bazarı və onun inkişaf meylləri.

## Ədəbiyyat

1.Hacızadə E.M. Sosiallaşan iqtisadiyyat. Bakı: Elm, 2006, s. 197-203.

2.Kərimli İ.A. Beynəlxalq İqtisadi Münasibətlərin müasir problemləri. Bakı: Çaşıoğlu, 2006, s. 216-218.

3.H.Seyidoğlu. Uluslararası İktisat: Teori, Politika ve Uygulama. İstanbul, 2009.

4.Гитман Л.Д., Джонс М.Д. Основы инвестирования, М.: Дело, 1999, 1008 с.

5.Ломакин В.К. Мировая экономика. М.: ЮНИТИ, 2007, 223 с.

6.Костюнина Г.М. Международное движение капитала. Учебник. М.: ТК Велби, Проспект, 2005. с. 248-295.

## Mövzu 3.

## Kapital ixracının (*xarici investisiyaların*) forma və növ müxtəlifliyi, onların tənzimləmə xüsusiyyətləri

### Mövzunun proqram sualları

İnvestisiya vəsaitləri və beynəlxalq iqtisadiyyata onların istiqamətlənməsi formaları. Beynəlxalq biznes sistemi. Beynəlxalq iqtisadiyyatın təkrar istehsal strukturu. İnvestisiya vəsaitləri və beynəlxalq iqtisadiyyatda xidmət və digər sosial infrastrukturun formalaşması. Beynəlxalq investisiyalar lokal, regional və qlobal səviyyələrdə sosial-siyasi sabitliyə təsiri. Beynəlxalq investisiyaların hərəkəti texnika-texnologiyanın istehsal və xidmət sahələrinə tətbiq edilməsi fonunda.

Beynəlxalq investisiya ixracının strukturu. İnvestisiya ixracının mənbəyinə görə kateqoriyaları: dövlət kapitalı və xüsusi kapital. Dövlət investisiyalarının mənbələri: dövlət və ya dövlətlərarası təşkilatların büdcə vəsaitlərinin ixracı. Qeyri-dövlət mənbələrindən xaricə istiqamətləndirilən investisiya vəsaitləri.

Beynəlxalq investisiya qoyuluşlarının istifadə olunma xarakteri. Sahibkar və borc forması. Təyinatına görə investisiya ixracının formaları: Kapitalın birbaşa və ya dolayı yollarla istehsala yönəlməsi. Portfel investisiyalar, beynəlxalq kreditlər. Kapital qoyuluşunda faizlərin əldə olunması qaydaları. Beynəlxalq kapital qoyuluşlarının müddətə görə formaları. Uzunmüddətli, ortamüddətli və qısamüddətli kapital qoyuluşları. Bir ildən artıq və bir ildən az müddətdə ixrac olunan vəsaitlər. Ssuda kapitalı uzunmüddətli (*5 ilədək*) hesab olunur.

Beynəlxalq investisiya qoyuluşlarının məqsədinə görə formaları. Birbaşa və portfel qoyuluşları. Bu formaların fərqli və oxşar cəhətləri. Beynəlxalq investorların uzunmüddətli iqtisadi maraqların reallaşması istiqamətləri.

## Təcrübi dərsin sualları

3.1.İnvestisiya vəsaitlərinin beynəlxalq iqtisadiyyata istiqamətlənməsinin müasir formaları.

3.2.İnvestisiya ixracının subyektlərə görə formaları.

3.3.Beynəlxalq investisiya qoyuluşlarının istifadə olunma xarakterinə görə formaları.

3.4.Beynəlxalq investisiya qoyuluşlarının müddətə görə formaları.

3.5.Beynəlxalq investisiya qoyuluşlarının məqsədinə görə formaları.

3.6.Qeyri-dövlət mənbələrindən xaricə istiqamətlənən investisiya resursları.

3.7.Beynəlxalq investisiya qoyuluşundan faizlərin əldə olunması qaydaları.

## Ədəbiyyat

1.Hüseynov T. Azərbaycanda investisiyalar. Bakı: Elm, 2013, 378 s.

2.Kərimli İ.A. Beynəlxalq İqtisadi Münasibətlərin müasir problemləri. Bakı: Çaşıoğlu, 2006, s. 218-221.

3.Kərimov İ. Orucov A., İsrafilov H. Dünya iqtisadiyyatı, dərslik (*İkinci nəşr*),. Bakı: “Nurlan nəşriyyatı”, 2007, 728 s.

4.Sabiroğlu Natiq. Qloballaşma və xarici investisiyalar. Bakı: 2006, s. 28.

5.P.Krugman, M. Obstfeld. International Economics: Theory and Policy. Pearson - Addison Weasley, 2006.

6.Нешитой А.С. Инвестиции: Учебник. М.: “Дашков и К”, 2012, 372 с.

8.Уильям Ф. Шарп, Гордон Дж. Александер, Джеффри В. Бэйли. Учебник/Инвестиции. М.: Инфра-М. 2001, 1025 с.

## Mövzu 4.

## Beynəlxalq istehsalın formalaşmasının əsasları və istiqamətləri

### Mövzunun proqram sualları

Beynəlxalq iqtisadiyyatında istehsalın beynəlmilləşməsi prosesi. İstehsalın beynəlmilliləşməsi prosesinin beynəlxalq investisiyalar üçün zəmin yaratması. Beynəlxalq investisiyaların həcminin sürətlə artması və beynəlxalq istehsalın miqyasının genişlənməsi. Beynəlxalq iqtisadiyyatda istehsalın stimullaşdırmasının metodları və üsulları.

İstehsal amillərinin beynəlmilliləşməsi fonunda investisiya siyasəti. İnvestisiya idxal edən ölkələrdə istehsala nəzarət səhmlərinin minimum zərfini əldə etmək. İnkişaf etməkdə olan və inkişaf etmiş ölkələrdə istehsal amillərinin beynəlmilliləşməsi prosesi.

Beynəlxalq invesitisiya siyasətində mövcud olan meyllər. Ümumilikdə liberallaşma. Dövlət siyasətinin reallaşdırılması üçün investisiyaların tənzimlənməsi. Ətraf mühitin mühafizəsi, yoxsulluqla mübarizə, milli təhlükəsizlik. Beynəlxalq İnvestisiya Sazişləri - BIS. Xarici investisiya qoyuluşları prosedurlarının sadə-

ləşdirilməsi. Xarici investisiya sazişlərinin sadələşdirilməsi fonunda beynəlxalq qanunvericilikdə dəyişikliklərin zəruriliyi.

İnvestisiyaların liberallaşdırılması prosesində dövlət tənzimlənməsinin rolu. Tənzimləməsnin müasir metodları. Dövlətlərarası əlaqələr daha çox liberallaşmaya doğru meyl edir. BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının - UNCTAD-ın son hesabatları. Xarici investisiyaların həvəslənməsi. Həvəsləndirmə prosedurlarının sadələşdirilməsi tədbirləri. Yoxlama prosedurları. Təsdiq prosedurları. Layihələrin təstiqi prosedurları. Vergi prosedurları və.s bu kimi prosedurların liberallaşması.

**Təcrübi dərsin sualları**

4.1.Dünya iqtisadiyyatında beynəlmilli istehsal sektorunun formalaşması qanunauyğunluqları.

4.2.Kapitalın, malların və xidmətlərin ölkədən ixracı və istehsal amillərinin beynəlmilliləşməsi prossesinin sürətlənməsi.

4.3.Xarici investisiya fəaliyyətində liberallaşma və xarici investisiyaların yatırılmasında prosedurların sadələşdirilməsi.

